* * *

Biçarə məni-əsir, yarəb, yarəb,
Dərmandə mən fəqir, yarəb, yarəb.
Elmü əməlim yox ki, ana təkyə qılım,
Sənsən mənə dəstgir, yarəb, yarəb.

* * *

Qılğıl məni-gümrahə inayət, yarəb,
Görsət mənə bir rahi-hidayət, yarəb,
Vergil nəfəsi-gərm ilə ahi-səhəri,
Könlümğə kim, ol qılsa sirayət, yarəb.

* * *

Ey məhrəmi-pərdeyi-hərimi-hərəmeyn,
Vay, sahibi-me'raci-rəsuli-səqəleyn,
Sənsən kim, irür dəstü dilün zubəhreyn,
Həvva bilə Adəmğə yüzün qürrətüleyn.

* * *

Ey şəm'i-yüzün ovci səadət günəşi,
Sən türki-Xətaisənü xalın həbəşi.
Sən xandəvü mən xandə zəhi fikri-məhal,
Mən qul həbəşivü sən çirağı-Qureyşi.

* * *

Eşqin vətəni cani-həzin bolsə bolur,
Gər şahi-gədayə həmnişin bolsə bolur.
Beytül-həzənimdə kim, pəri yeri iməs,
Gər sən təki yari-nazənin bolsə bolur.

* * *

Yarü meyü novbahar, yarəb, olamı?
Budur mana ixtiyar, yarəb, olamı?
Bir gün yetirə Kə'beyi məqsudə məni
Bu gərdişi-ruzigar, yarəb, olamı?

* * *

Cismimni zəifü natəvan qıldı fəraq,
Canımnı ədəm sarı rəvan qıldı fəraq.
Bolmaz desə kim, yaxşı-yaman qıldı fəraq,
Yari məni rüsvayi-cahan qıldı fəraq.

* * *

Fikrim budurur kim, səni mehman qılabən,
Bu cani-girami sana qurban qılabən,
Bağrım qanidin şədabi-lə'li gətürüb,
Köksüm içidə könülni büryan qılabən.

* * *

Hər dəm qəmi-eşqin məni ğəmgin qıladur,
Xunabeyi-dil çöhrəmi rəngin qıladur,
Ey dil, xanı sən ki, ol sənəm imdidən,
Zülm ilə sitəmpişəsi ayin qıladur.

* * *

Ğürbət məni zarü natəvan qıldı yenə,
Seylabi-sirişkimni rəvan qıldı yenə,
Ğəm bülbülü kim, ovci fərəh bürcündən,
Könlüm qəfəsini aşiyan qıldı yenə.

* * *

Aləmdə məni-xəstəyə bir yar gərək,
Həp yar nə kim, yari-vəfadar gərək.
İşrət günidə çox bulunur yar, vəli
Ğəm köçəricək yar ilə qəmxar gərək.

* * *

Cana, mənü sən bolğəli, Məhmudü Ayaz,
Sən işvəvü naziləvü mən əhli-niyaz.
Badə içəli, eyş edəli, vəsl ilə kim,
Biz bolmayalı çox olasıdır qışü yaz.

* * *

Bir saqiyü bir sürahiyü səhni-çəmən,
Bir six kəbabü bir büti-sim, zəqən,
Bir mürtübü bir kitabü bir şali-kühən,
Artur diləsəm bağrıma biçaq urasən.

* * *

Ey sərvi-qədin naz ilə pərvərdə nihal,
Xali-siyəhin nafəvü ol çeşmi-qəzal;
Xurşidi-rüxün birlə irür qaşlərün
Bir bədr kim, üstündə doğar iki hilal.

* * *

Mundaq ki, məni lə'li-ləbin qıldı xərab,
Çeşmi-siyəhin bağladı rahi-xoruxab,
Bir gün görəsən kəlisa içrə məni,
Səccadəvü təsbih qılıb rəhni-şərab.

* * *

Çün gəlmədi hiç xətt-rəddü qəbul,
Mən bəndəligin gör aradə bolma füzul,
Gah ola ki, bir ahi-səhər birlə yetə
Ki, bolmaya tati-çehelsalə qəbul.

* * *

Vəh-vəh! Necə xəstədili-fərsudə,
Ömrüm tələf, ovqatım ola bihudə.
Çeşmimdən axutsun cigər paludə,
Həsrət bilə ol lə'li-şərab aludə.

* * *

Qıldı səri-zülfün yenə divanə məni,
Ğərq etdi yenə nafə təki qanə məni,
Səhrayi-ədəm sarusuna qıldı rəvan,
Ahu təki ol nərgisi-məstanə məni.

* * *

Ey bağı-rüxün rövzeyi-rizvan, qara göz,
Künci-dəhənin çeşmeyi-heyvan, qara göz,
Ey mərdüməki-dideyi-giryan qara göz,
Canım qara göz, canıma canan qara göz.

* * *

Hər qovm ilə qıldım bu cahan mülkünü seyr,
Gəh maniyi-şər' buldumü gəh maniyi-xeyr,
Gör kim, nə müsəlman bolubəm axəri-kar,
Mən mö'təkifi-məscidü dil, sakini-deyr.

* * *

Ey qönçeyi-firdovs, ləbin bikəmü keyf,
Yüzünə birar xali-vəfa yoxluğu heyf.
Bir xani-vüsalinğə çağır nola məni,
Yox sizdə məgər qaideyi-əkrəmü zeyf.

* * *

Ey vay ki, qaldım yenə qürbətdə qərib,
Nə yarü nə qəmxarü nə həmdəm, nə təbib.
Nə halıma behbud, nə dərdimğə təbib,
Nə vəslinə ümid, nə hicrinə şəkib.

* * *

Qürbətdə kişi istəsə mavayi-qərib,
Bir guşeyi-viranə irür cayi-qərib.
Biçarə qəribi ki, olur halətdə
Başında bir ev yox ki, deyə vay qərib.

* * *

Yüz şükr ki, sərf eylədim əyyami-şəbab,
Məhbubü şərab ilə məni-xanəxərab;
Şirü meyü bağı-İrəmü hurü qüsur,
Bu cümlə sənəvü mənə, məhbubü şərab.

* * *

Ey sürməli çeşmin iki badami-siyah,
Yüzün çəmən, hüsnü xəttin mehri-giyah.
Qul Kişvəri halına nigahi-gahi,
Andan elədigim deyəsən tabi-şərah.

LÜĞƏT

A

Abi-heyvan – dirilik suyu
Abi-həyat – dirilik suyu
Ac – fil dişi, fil sümüyü
Afitab – günəş
Amuzgar – müəllim
Arət – gətirsin
Ariz – yanaq
Asib – 1) bəla, müsibət; 2) zərər, xətər, ziyan
Aşiyan – yuva
Atəşparə – od parçası
Ayaq (*əyaq*) – piyalə, qədəh

B

Badeyi-gülgun – gül rəngdi badə
Badi-xəzan – payız küləyi
Bağı-cinan – cənnət bağı
Bal – qanad
Begüşa – aç
Beh – heyva
Besyar – çox
Beytül-həzən – qəm, qüssə evi
Bədxu – xasiyyəti pis, kobud
Bəhr – dəniz
Bəid – uzaq
Bən – xal
Bəndər – liman
Bərg – yarpaq
Bərxurdar – 1) istifadə edən, xeyir görən, mənfəət götürən; 2) xeyirli bir işin mükafatına nail olan; 3) xoşbəxt olan
Bəsi – çox
Bimar – xəstə
Bitik – məktub
Biyaban – çöl
Brəhman – Hindistanda dini xadim adı, ruhani alim
Buriya – 1) həsir; 2) qamış
Busə – öpüş
Buy – iy
Bürqə – duvaq, niqab, rübənd

C

Cəmmazə – sürətlə gedən erkək dəvə
Cinan – cənnət
Co – arpa
Cuybar – suyu, çayı bol olan
Cüda – ayrı
Cür'ə – bir udum, bir qurtum, bir içim

Ç

Çabüksəvar – çevik, mahir at sürən
Çeşmə – bulaq
Çəri – qoşun

D

Darüşşəfa – xəstəxana
Dəhan – ağız
Dəndan – diş
Dəstənbu – şamama
Dəvat – mürəkkəb
Duş – yuxu
Duzəx – cəhənnəm
Düşvar – çətin

E

Eyd – bayram
Eyn – göz

Ə

Əbru – qaş
Əflak – fələklər
Əfsun – sehr
Əfyun – tiryək
Əğyar – rəqib, düşmən, özgə

Əhbab – dostlar
Əxtər – ulduz
Əkşi – acı, turş
Ələm – əzab, əziyyət
Əmiğ – dərin
Ənbür – maşa
Əndam – bədən
Əndəlib – bülbül
Ənduh – qəm, qüssə
Əngüşt – barmaq
Ənfas – nəfəslər
Ənqərib – tezliklə, tez bir zamanda
Ənvar – nurlar
Ərğəvan – tünd-qırmızı bir çiçək
Əşk – göz yaşı
Ə'van – kömək edənlər, köməkçilər
Əyyarvaş – hiyləgər kimi, tələxək kimi
Əz mən – məndən

F

Fərxəndə – 1) xoşbəxt, mübarək 2) uğurlu
Fərzənd – övlad
Filfil – qara istiot
Furuğ – işıq

G

Gərami – mehriban, əziz
Gərdalud – toza, torpağa bulaşmış
Gərm – isti
Giyah – bitki
Göyük – yanmış
Göydürmək – göynətmək, yandırmaq
Gözətmək – gözləmək
Gümrah – yolunu azan

Ğ

Ğəbğəb – buxaq
Ğəltan – diyirlənən, yumru
Ğəzal – ceyran, ahu
Ğübar – toz, torpaq

H

Həmsayə – qonşu
Hərgiz – heç, əsla, heç zaman
Həzər – 1) saqınma, qorunma, 2) uzaqlaşma, qaçma
Hüdhüd – hop-hop, şanapipik

X

Xab – yuxu
Xak – torpaq
Xakistər – kül
Xamə – qələm
Xazin – xəzinədar
Xətərnak – təhlükəli
Xəzan – payız
Xirəd – ağıl
Xirqə – dərvişlərin və zahidlərin qaba yundan geydikləri uzunətəkli geyim
Xun – qan
Xunincigər – ciyəri qana dönmüş, dərdli
Xurşid – günəş
Xuşə – salxım
Xüldi-bərin – cənnət, behişt
Xürsənd – şad

İ

İltimas etmək – yalvarmaq
İrişdirmək – çatdırmaq
İstiğfar – tövbə etmə
İstikrah – nifrət etmə, iyrənmə

J

Jalə – şeh, şəbnəm
Jəndə – köhnə, cırıq

K

Kah – saman
Karagah – 1) işbilən; 2) emalatxana
Kəlim – Musa peyğəmbərin ləqəbi